***İBTİDAİ TƏHSİL***
***НАЧАЛЬНОЕ ОБРАЗОВАНИЕ***
***ELEMENTARY EDUCATION***

*UOT 372.3/.4*

***Maya Rəhim qızı Qasımova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/ 0000-0001-9116-4331*
https://doi.org/10.69682/azrt.2024.91(1).40-45

## İBTİDAİ MƏKTƏBDƏ İNŞA TƏLİMİNƏ HAZIRLIQ ÜZRƏ İŞİN TƏŞKİLİ

***Мая Рагим гызы Касумова***
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по педагогике*

## ОРГАНИЗАЦИЯ РАБОТЫ ПО ПОДГОТОВКЕ К ПИСЬМУ СОЧИНЕНИЙ В НАЧАЛЬНОЙ ШКОЛЕ

***Maya Rahim Gasimova***
*senior lecturer at the Azerbaijan State Pedagogical University*
*doctor of philosophy in pedagogy*

## ORGANIZATION OF WORK ON PREPARATION FOR COMPOSITION TRAINING IN PRİMARY SCHOOL

**Xülasə.** Məqalədə ibtidai sinif şagirdlərinin inşa təliminə hazırlığı yollarından bəhs edilir. Bu məqsədlə ilk növbədə, dərslikdəki oxu mətnlərinin struktur-məzmun xüsusiyyətlərinin müntəzəm təhlili ilə bağlı işin təşkilinin zəruriliyi vurğulanmışdır. Qeyd edilmişdir ki, şagirdlərə "mətn", "mətnin ideyası", "mətnin tərkib hissələri", "başlıq", "abzas", "plan" və s. anlayışların dərk olunması üçün verilən tapşırıqlar onları mətnin struktur xüsusiyyətləri, kompozisiyası ilə tanış edir və mətnqurma bacarıqlarının inkişafına təkan verir.
***Açar sözlər:*** *ibtidai sinif şagirdləri, rabitəli nitq, inşa, mətn qurmaq bacarıqları, əsərin ideyası, başlıq, plan.*

**Резюме.** В статье рассматриваются пути подготовки младших школьников к написанию сочинений. С этой целью, в первую очередь подчеркивается необходимость организации работы по систематическому анализу структурно-содержательных особенностей текстов для чтения находящихся в учебнике. Отмечено, что задания направленные на осмысление понятий: "текст", "идея текста", "части текста", "заголовок", "абзац", "план" и т. д. знакомят учащихся со структурными особенностями текста, его композицией и помогают развитию навыков построения текста.
***Ключевые слова:*** *учащиеся начальных классов, связная речь, сочинение, навыки построения текста, идея произведения, заголовок, план*

**Summary.** The article examines the ways of preparing younger students to write compositions. For this reason, first of all, the importance to organize work on the systematic analysis of the structural and content features of the reading texts in the textbook is emphasized. It is noted that tasks aimed at understanding the concepts, such as "text", "idea of text", "parts of text", "title", "paragraph", "plan", etc. introduce students to the structural features of the text, its composition and help to develop text construction skills.
***Keywords:*** *primary school students, coherent speech, composition, text construction skills, the idea of the work, title, plan*

İnşalar şagirdlərin yaradıcılıq qabiliyyətlərini, müstəqillik və fəallığını təmin edən, rabitəli nitqlərinin inkişafında müstəsna əhəmiyyəti olan mürəkkəb iş növüdür.

Nəzəri və empirik yolla əldə edilmiş məlumatların təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, inşa üzrə iş prosesində ibtidai sinif şagirdlərinin rabitəli nitqinin inkişaf mexanizmlərinin tədqiqi müasir təhsil sisteminin ən vacib problemlərindən biridir. Belə ki, yazılı rabitəli nitq bacarıqlarının inkişafı – dil tədrisinin ilkin kursunun bütün həlqələrini birləşdirən bir bağdır. "Şagirdlərin düzgün tələffüzü, lüğətinin zənginləşdirilməsi, cümlə qurmaq vərdişlərinin inkişaf etdirilməsi üzrə görülən işlər rabitəli nitqdə birləşir, yekunlaşır" (1, s. 492). İnşa, rabitəli nitqin ali nümunəsi kimi, yalnız dil dərslərinin deyil, bütünlükdə təlim prosesinin səviyyəsini əks etdirən nəticədir. Buna görə də inşalara hazırlıq, onun yazılmasına keçməzdən daha əvvəl – məktəbin ilk günlərindən başlamalı, şagirdlərə inşa yazmağın yolları öyrədilməli, onlara müəyyən mövzu ətrafında fikirlərini məntiqi ardıcıllıqla birləşdirə bilmək bacarığı aşılanmalıdır. Prof. Y.Ş. Kərimov yazır: "İbtidai siniflərdə ana dili tədrisinin nəticəsi şagirdlərin öz fikirlərini müstəqil və rabitəli verə bilmə bacarığına necə yiyələnmələri ilə ölçülür" (3, s. 489).

İnşalara hazırlıq prosesində şagirdlər bir sıra zəruri bacarıqlara yiyələnməlidirlər: təqdim edilmiş mövzunu anlamaq (məzmununu, həcmini, sərhədlərini müəyyənləşdirmək); onunla bağlı lazımi material toplamaq (hansısa mənbələrə baxmaq, nələri isə müşahidə etmək, bu günədək əldə olunan təcrübədən yararlanmaq və s.); əldə edilmiş materialı müvafiq ardıcıllıqla düzmək üçün plan tərtib etmək; lazımi sözləri və digər dil vasitələri seçmək, düzgün sintaktik konstruksiyalar qurmaq; inşanı yazarkən orfoqrafik və punktuativ normaları gözləmək, abzaslardan yerli-yerində istifadə etmək; mövzuya tənqidi yanaşmaq (inşa mətnində təsvir edilənlərlə bağlı şəxsi mövqeyini çatdırmaq); özünün və digər şagirdlərin inşasındakı səhvləri aşkara çıxara bilmək, redaktə yolu ilə özünün və başqalarının yazısını təkmilləşdirmək (mətnə əlavələr etmək, müəyyən sözləri daha dəqiqi ilə əvəz etmək, təkrarları aradan qaldırmaq, artıq olanları ixtisar etmək və s.).

İbtidai sinif müəllimi şagirdlərin inşa yazmaq (yəni, mətn qurmaq) bacarıqlarını inkişaf etdirmək üçün öncə onlara "mətn" məfhumunun mahiyyətini dərk etməkdə kömək etməli, mətnin – leksik və qrammatik cəhətdən əlaqələndirilmiş cümlələrin müəyyən bir mövzu ətrafında birləşməsi olub, bitkin məzmuna və formaya malik nitq nümunəsi olduğunu izah etməlidir. Müəllim nümunələrin köməyi ilə şagirdlərə başa salmalıdır ki, hər hansı bir sintaktik bütövü mətn adlandırmağa əsas verən onun zahiri elementləri (başlıq, yarımbaşlıq, abzas və s.) və kompozisiyasıdır. Mətnin təməl tikinti materialları haqqında biliklərin mənimsənilməsi şagirdlərə istənilən oxu materialını sərbəst şəkildə təhlil etməyə və mətn tərtibi zamanı onlardan yararlanmağa imkan verir. İbtidai sinif müəllimi unutmamalıdır ki, şagirdlərdə inşa, esse yazmaq, hekayə qurmaq və s. bacarıqların inkişafı dərslikdəki mətnlərin oxusu, dinlənilib anlanılması; məzmunu, ideyası, strukturu, ifadə üslubu və formasının təhlili üzərində işin təşkili ilə üzvü surətdə bağlıdır. Prof. V.T. Qurbanov yazır: "Qabaqcıl müəllimlər Azərbaycan dili dərsliklərindəki hekayə mətnlərinin struktur məzmun xüsusiyyətlərini müntəzəm təhlil yolu ilə şagirdlərə hekayə yazmağın əlifbasını öyrədə bilirlər" (4, s. 105).

Şagirdlərin oxuduqları və ya dinlədikləri mətnin mövzusunu, ideyasını müəyyənləşdirmək bacarığı rabitəli nitqin inkişafında aparıcı mövqe tutur. Bunun üçün ibtidai sinif müəllimi şagirdlərdə "mətnin mövzusu", "mətnin əsas ideyası" ilə bağlı aydın təsəvvür formalaşdırmalı, verilmiş bu və ya digər mətnin mövzusunu və əsas ideyasını müəyyənləşdirmək bacarığını inkişaf etdirməlidir. Bu məqsədlə şagirdlərə aşağıdakı çalışma növləri təqdim edilə bilər:

Müəllim şagirdlərə izah edir ki, mətndə nədən danışılırsa, bu onun mövzusudur, mətnin tərkibindəki bütün cümlələr bir-biri ilə məna və qrammatik cəhətdən bağlanaraq həmin mövzunu açmağa xidmət edir.

Tapşırıq 1. Mətni oxuyun və mövzusunu müəyyənləşdirin:

*Qazlar ətindən, tükündən və yumurtasından istifadə edilən quş növlərindən biridir. Qazlar əsasən otla, bəzi növləri isə həşəratla qidalanır. Qazlar çox tez böyüyür. Onlara nə isə yeməyi və ya üzməyi öyrətməyə ehtiyac yoxdur. Onlar müstəqildirlər. Qazların dünyada yayılmış 40-dan çox növü vardır.*

Müəllim şagirdlərdən mətndə nədən danışıldığını soruşur (*Qazlardan*). Şagirdlər bütün cümlələrin bir mövzu ilə bağlı olduğunu əyani şəkildə görürlər.

Tapşırıq 2. Mətni oxuyun və tərkibindəki bütün cümlələrin mətnin mövzusuna uyğun olub-olmadığını müəyyənləşdirin.

*Hər bulağın öz səsi var – biri pıçıldayır, digəri sanki ucadan qışqırır. Hamısı çaya tələsirlər. Bulağın sirrini bilmək istəyirsənsə, çayın yanında otur və qulaq as.*

Müəllim şagirdlərə izah edir ki, bu mətndə bulaqlardan bəhs edilir: birinci cümlədə bulaqların səsindən, ikincidə – hara tələsdiklərindən, üçüncüdə isə – bulağın sirrini necə tapmaqdan danışılır. Şagirdlər bütün cümlələrin "bulaqlar" mövzusuna uyğun olduğunu görürlər.

İbtidai sinif müəllimi həmçinin şagirdlərə izah etməlidir ki, mətnin mövzusu öz ifadəsini onun başlığında tapır. Başlıq – mətnin məzmununu çox qısa şəkildə xülasələndirir. Müəllim şagirdləri hər bir başlıqda mətndə bəhs olunanlar haqqında eyhamın ola biləcəyinə istiqamətləndirərək, başlığa əsasən mətnin məzmununu təxmin etməyə, məzmunla bağlı müəyyən fərziyyələr irəli sürməyə həvəsləndirməlidir.

Tapşırıq 3. Mətni oxuyun. Təklif olunan başlıqlardan mətnin mövzusunu daha düzgün ifadə edənini seçin.

*İsti yay günü idi. Toplan bağda – skamyanın altında yatırdı. Azər çubuğu götürdü və itə sataşmağa başladı. Toplan əsəbi halda mırıldadı və Azərin üstünə tullandı. Azər qaçdı, amma Toplan onu dişləməyi bacardı. Azər ağladı.*

Təklif olunan başlıqlar: *1. İsti yay günü. 2. Azər. 3. Toplan. 4. Azər və Toplan.*

Verilmiş başlıqlardan "*Azər və Toplan*" mövzunu daha tam müəyyənləşdirir, yəni mətndə kimin və nəyin haqqında danışıldığını aydın ifadə edir.

Quracaqları mətndə – esse və inşalarda əsas ideyanı aça bilmək bacarığı rabitəli nitqin inkişafında əsas yer tutur. Müəllim şagirdlərə izah edir ki, hər bir mətnin yazılmasında bir məqsəd, çatdırılması nəzərdə tutulan bir fikir olur ki, bu da mətnin ideyasıdır. Mətnin ideyası (əsas fikri), adətən, müəllifin oxuculara hansı mesajı ötürmək istədiyini, nəyə səslədiyini, nəyi öyrətməyə çalışdığını – bir sözlə, mətnin yazılma məqsədini ifadə edir. Şagirdləri bu və ya digər mətnin ideyasının tapılması ilə bağlı çalışdırmaq məqsədilə müəllim aşağıdakı tapşırıqlardan istifadə edə bilər:

Tapşırıq 4. Mətnin mövzusunu və əsas fikrini (ideyasını) müəyyənləşdirin:

*"Azərbaycan dili" kitabı birinci sinif şagirdinə hərfləri tez öyrənməyə kömək edir. "Azərbaycan dili" kitabını oxuyarkən uşaqlar onlar üçün yeni və maraqlı olan bir çox şeylər öyrənirlər. Bu kitabdan sonra məktəblilər digər kitabları da yaxşı oxumağa başlayırlar.*

Şagirdlər müəyyənləşdirirlər ki, mətnin mövzusu – "Azərbaycan dili" kitabı; ideyası (əsas fikri) isə "Azərbaycan dili"nin vacib və lazımlı bir kitab olmasıdır.

Müəllim şagirdlərə başa salmalıdır ki, bəzən mətndə əsas fikir başlıqda və ya mətndəki cümlələrindən birində ifadə edilə bilər.

Tapşırıq 5. Mətnin mövzusunu və əsas fikri ifadə edən cümləni müəyyənləşdirin:

*Banan palmaları – otdur. Başının üstündəki nəhəng yarpaqları görəndə, insanın bunu deməyə dili dönmür. Banan palmalarının sərin kölgəyə bürüdüyü qalın meşə... Lakin bu, yenə də otdur. Nəhəngdir, amma otdur.*

Şagirdlər müəllimin köməkliyi ilə müəyyənləşdirirlər ki, mətnin mövzusu – *banan palmalarıdır*. Əsas fikir isə birinci cümlədə ifadə olunub: müəllifin çatdırmaq istədiyi məhz "*banan palmalarının ot olması*"dır.

Tapşırıq 6. Mətni oxuyun, mövzusunu və əsas fikrini müəyyənləşdirin:

*Sığırçınlar mart ayında uçub gəldilər. Ağcaqayın ağacının gövdəsindəki boşluqda yerləşdilər. Sığırçınlar bütün günü işləyirdilər. Onlar yuvaya lələk, ot, quru yosun daşıyırdılar. Axşamlar isə bir budaqda oturub mahnı oxuyurdular. Sığırçınlara qayğı göstərin, onlar bizim dostlarımızdır.*

Şagirdlər müəyyənləşdirirlər ki, mətnin mövzusu – *sığırçınlar*; əsas fikri isə – *sığırçınlara qayğı göstərin, qoruyun, onlar bizim dostlarımızdır.*

Tapşırıq 7. Mətni oxuyun, mətndə nədən danışıldığını müəyyənləşdirin, verilmiş başlıqların arasından ən uyğun olanını seçin.

*Tülkü qışda siçan ovuna çıxır. O, daha uzaqları görmək üçün ağac kötüyünün üstünə çıxıb diqqətlə baxır ki, harada qarın tərpəndiyi-*

*ni görə bilsin. Qulaqlarını şəkləyir ki, siçanın dişlərinin xırçıltısını duya bilsin. Elə ki eşitdi, duydu – o saat atılır. Bitdi: siçan artıq hiyləğər tülkünün dişlərindədir.*

Verilmiş başlıqlar: *1.Tülkü; 2.Tülkü və siçanlar; 3.Hiyləgər ovçu.*

Şagirdlər ən uyğun başlıq variantının “Hiyləgər ovçu” olduğunu söyləyirlər.

Tapşırıq 8. Mətni oxuyun, başlıqlardan hansının mətnin mövzusunu, hansının mətnin ideyasını ifadə etdiyini müəyyənləşdirin.

*Hər bir zəif kimə görəsə güclüdür. Bayquş kirpidən, kirpi gürzədən, gürzə yereşəndən, yereşən kərtənkələdən, kərtənkələ torpaq böcəyindən, torpaq böcəyi soxulcandan güclüdür. Bunlardan hansı faydalıdır, hansı zərərlidir? Mənə görə hamısı bərabərdir, hamısı meşə üçün lazımlıdır. Və hətta vacibdir.*

Verilmiş başlıqlar: *1.Meşə sakinləri; 2. Meşə üçün bütün sakinləri gərəklidir.*

Şagirdlər müzakirə əsnasında müəyyənləşdirirlər ki, mətnin mövzusunu birinci başlıq (“Meşə sakinləri”) ifadə edir; ikinci başlıqla müəllif oxucularına meşənin bütün sakinlərinin gərəkli olduğunu çatdırmaq istəmişdir. Bu başlıq mətnin ideyasını (əsas fikri) ifadə edir.

Bu tipli tapşırıqların icrasından sonra şagirdləri qruplara bölüb, hər qrupa bir

mətn verərək, onun mövzusunu və ideyasını müəyyənləşdirməyi tapşırmaq olar. Daha sonra müəllim mətni oxuyur, digər qrupdakı şagirdlər onun mövzusu və ideyası ilə bağlı fikirlərini söyləyirlər və cavablar həmin mətn üzərində işləyən qrupun cavabları ilə tutuşdurulur.

İnşa yazmaq üçün şagirdlər mövzu ilə bağlı lazımi material toplamağı və həmin materialı düzgün ardıcıllıqla yerləşdirməyi öyrənməlidirlər. Bunun üçün şagirdlərdə müxtəlif mənbələrdən məlumatı axtarıb tapmaq, onu mövcud bilik və təcrübə ilə tutuşdurmaq, əlaqələndirmək; məlumatı müxtəlif yollarla (qısa qeydlər, işarələr, şəkil, cədvəl, sxem və s.) qeydə almaq və s. bacarıqların formalaşdırlması vacibdir. Müəllim bu işi kollektiv şəkildə də təşkil edə bilər. Məsələn, şagirdlərə bahar fəslinə aid müxtəlif şəkilli kartlar paylayıb gördükləri ilə bağlı müxtəlif sözlər deməyi təklif edə bilər (*nərgiz, qaranquşlar, təbiət, ağaclar, çiçəklər, bahar, Novruz bayramı, səməni, çəmən, lalə, tumurcuq* və s.). Daha sonra tapdıqları sözlərlə söz birləşməsi qurmağı təklif edə bilər. Uşaqlar çətinlik çəkərlərsə, müəllim yazı taxtasına arasından seçmək üçün sözlər yaza bilər (*ətirli, yaşıl, oyanmış, canlanmış, ilk, bolluq rəmzi, bərəkətli, təravətli* və s.). Şagirdlər verilmiş sözlərdən istifadə edərək müxtəlif söz birləşmələri qururlar (*ətirli nərgiz, yaşıl çəmən, oyanmış torpaq, canlanmış təbiət, ilk çiçəklər, bolluq rəmzi səməni, bərəkətli Novruz, təravətli bahar* və s.). Müəllim şagirdlərə tərtib etdikləri söz birləşmələrini cümlədə işlətməyi təklif edir. Sonrakı mərhələdə qurduqları cümlələrə öz sözlərilə (bilavasitə yaşadıqları, televiziyada gördükləri, mətnlərdən oxuduqları və s.) əlavələr edərək kiçik hekayə qurmağı tapşırır.

Bu tipli çalışmalar uşaqlara informasiyanı necə toplamağın düzgün olduğunu başa düşməkdə kömək edir və gələcəkdə inşa yazarkən işə haradan başlamağın lazım olduğunu anlamaqda yardım edir.

Həmçinin, şagirdlər hiss etdiklərini ifadə etməyi, dil vasitələrindən ədəbi dil normalarına uyğun olaraq istifadə etməyi – bir sözlə, fikir və düşüncələrini düzgün çatdırmağı bacarmalıdırlar. Bu iş oxu dərslərində – bədii mətnlərə istinad edilərək aparılmalı, şagirdlərə elə tapşırıqlar verilməlidir ki, onlar bu və ya digər bədii əsərlə, oradakı obrazlarla bağlı hisslərini ifadə etsinlər. Məsələn, II sinif dərsliyində “Qar kraliçası” (2, 89-92) hekayəsi keçilərkən müəllim şagirdlərə “Obrazların xəritəsi” metodundan istifadə edərək Gerda və Qar kraliçasının xarakterini ifadə edən sözləri yazmağı, onların müqayisəli təhlilini aparmağı tapşıra bilər. Təcrübə göstərir ki, şagirdlərə: “*Gerda (Qar kraliçası) necə obrazdır?*” sualı verərkən, onların əksəriyyəti sadəcə “*yaxşı obrazdır*” və ya “*pis obrazdır*” ifadələri ilə cavab verirlər. Həmin “yaxşı” və “pis” ifadələrinin altında yatan məqamları açmaqda, insanlara xas keyfiyyətləri (*Gerda qayğıkeşdir, mehribandır, mərhəmətlidir, ürəyiyumşaqdır, xeyirxahdır, ürəyiyanandır, həssasdır, sədaqətlidir, vəfalıdır; Qar kraliçası isə kobuddur, acımasızdır, qəddardır, daşürəklidir, zalımdır, vicdansızdır* və s.) ifadə etməkdə çətinlik çəkirlər.

İnşa yazmağı öyrənmək üçün yuxarıda qeyd olunan bacarıqlarla yanaşı, şagirdlərdə topladığı materialı məntiqi ardıcıllıqla yerləşdirmək – plan tərtib etmək bacarıqlarının formalaşdırılması da zəruridir. Çünki mətn qurmaq “yal-

nız üslubi deyil, məntiqi çalışmadır" (3, 509). Bu işə öncə dərslikdəki mətnlərə plan tərtib olunmasından başlamaq lazımdır. Bu məqsədlə müəllim şagirdlərə aşağıdakı tapşırıqları verə bilər: "Hekayəni oxuyun, giriş, əsas və nəticə hissəsini ayırın"; "Hekayədə neçə abzasın olduğunu müəyyənləşdirin"; "Sizcə, birinci (ikinci, üçüncü...) abzasda hansı cümlə əsasdır?"; "Birinci (ikinci, üçüncü...) abzasdakı açar sözləri müəyyənləşdirin"; "Hər abzasdakı açar sözü plan maddəsi kimi yazın"; "Verilmiş plana əsasən hekayəni (nağılı) tapın"; "Mətnin planında artıq bəndləri (müəllim tərəfindən məqsədli şəkildə qoyulmuş) ixtisar edin", "Qarışıq verilmiş plan bəndlərinin ardıcıllığını mətnin məzmununa uyğun olaraq bərpa edin" və s.

Bu tipli tapşırıqlar mütəmadi olaraq fərqli oxu mətnləri üzərində yerinə yetirilməlidir ki, şagirdlər öyrəndiklərini vərdiş halına gətirsinlər və inşa yazarkən müstəqil olaraq plan tərtib edə bilsinlər. İnşa planı hazırlamaq – mövzu ilə bağlı düşüncələrin inkişaf dinamikasını müəyyənləşdirmək, ifadə yolundakı etapları, ardıcıllıq zəncirini qurmaq deməkdir. Şagirdlərə izah edilməlidir ki, plan qurarkən hər fraqment (planın hər maddəsi) bir və ya bir neçə abzası əhatə edə bilər, əsas odur ki, həmin abzaslar bir fikir ətrafında birləşsinlər. Bir sözlə, inşanın planında kompozisiyanın necə qurulduğu görünməli; giriş, əsas hissə (bu hissə bir neçə plan maddəsi ilə ifadə oluna bilər), nəticəni "sezmək" mümkün olmalıdır.

Son nəşr II sinif dərsliyində şagirdlərə "Mətnin tərkib hissələri" başlığı altında mətnin *giriş, əsas, sonluq* hissələri ilə bağlı nəzəri məlumat da təqdim edilir (2, 86).

Bu sahədə əldə etdikləri biliyi möhkəmləndirmək və müvafiq praktik bacarıqlar formalaşdırmaq məqsədilə ibtidai sinif müəllimi şagirdləri dərslikdəki müəyyən mətnlərin giriş, əsas və nəticə hissələrini ayırmaq; verilmiş şəkillərə əsasən mətnin giriş (və ya əsas, nəticə) hissəsini qurmaq; mətndən götürülmüş bu və ya digər cümlənin (abzasın) mətnin giriş, əsas və ya sonluq hissələrindən hansına aid olduğunu tapmaq və s. üzrə çalışdıra bilər.

İnşa təliminə hazırlıqda növbəti addım şagirdlərin mətnin növləri ilə tanışlığı olmalıdır. Müəllim şagirdlərə izah etməlidir ki, mətnlər nəqli, təsviri və mühakimə xarakterli olur və onların fərqli xüsusiyyətləri var. Şagirdlərə başa salınmalıdır ki, mətnin tipini müəyyənləşdirmək üçün ümumi şəkildə mətnə veriləcək sual müəyyənləşdirilməlidir. Belə ki, nəqli xarakterli mətnlərdə *nə? nə zaman? harada baş vermişdir?, nə olmuşdur?* suallarına cavab tapmaq olur. Həmin mətnlərdə ardıcıllıq gözlənilməklə baş vermiş müəyyən hadisədən bəhs olunur, feillər çoxluq təşkil edir, *bir gün* (nə vaxt, harada? kiminlə?...), *sonra* (nə baş verdi?, hadisələr necə cərəyan etdi?), *nəhayət* (hadisə necə sonlandı?) sözlərindən istifadə olunur. Təsviri xarakterli mətnlərdə isə *necə? nə cür? hansı tərzdə?* suallarına cavab tapmaq olur. Bu tip mətnlərdə müəyyən obyektin əlamətlərini və ya insana xas psixoloji, mənəvi keyfiyyətlərin təsvirini vermək üçün obrazlı ifadələrdən, parlaq müqayisələrdən geniş istifadə edilir. Və bu mətnlərdə sifətlər üstünlük təşkil edir. Mühakimə xarakterli mətnlərdə *nə üçün? niyə? nə səbəbə?* Suallarına cavab tapmaq mümkündür. Burada müəyyən hadisələrin, hərəkətlərin səbəbi izah edilir, nə isə sübut olunur, hadisələr arasındakı asılılıq əlaqələri açılır və *çünki, buna görə, deməli, təsadüfi deyil ki, ilk növbədə, belə ki,* bağlayıcılarından geniş istifadə edilir. Şagirdlərin təsəvvürlərini dəqiqləşdirmək üçün müəllim müxtəlif xarakterli mətnlər üzrə iş aparmalıdır. Məsələn:

1. *"Dünən sirkdə idim və pələngləri gördüm. Onlar daha nə etmədilər! Əvvəlcə arxa ayaqları üstə qalxdılar, sonra maneələrdən və hətta yanan halqalardan atladılar. Və sonunda məşqçi bütün pələngləri bir sıraya uzatdı və onların üstündə pilləkənlərdə addımladığı kimi gəzdi*".

2. "*Dünən sirkdə idim və pələngləri gördüm. Onlar nə qədər güclü və gözəldirlər! Dəriləri zolaqlı, parlaq; gözləri yaşıl odtək yanır; pəncələri iri caynaqlı... Pələnglər nərildəyəndə ağ iti dişləri görünür. Pələnglərin dişlərinin uzunluğu bəzən 8 santimetrə çatır*".

3. "*Dünən sirkdə idim və pələngləri gördüm. Görəsən niyə belə güclü heyvanlar məşqçiyə itaət edirlər? Bəlkə, insanın onlardan qorxmadığını hiss etdikləri üçün? Və ya bəlkə ona görə ki, məşqçi onlara qayğı göstərir?*"

Müəllim şagirdləri mətnlərlə tanış etdikdən sonra şagirdlərin diqqətini hər mətnin giriş hissəsinə yönəldir: I mətn – *Dünən sirkdə idim və pələngləri gördüm. Onlar daha nə etmədilər!;* II mətn – *Dünən sirkdə idim və pələngləri*

*gördüm. Onlar nə qədər güclü və gözəldirlər!*; III mətn – *Dünən sirkdə idim və pələngləri gördüm. Görəsən niyə belə güclü heyvanlar məşqçiyə itaət edirlər?* Daha sonra müəllim şagirdlərin diqqətini hər üç mətndə təkrarlanan birinci cümləyə *(Dünən sirkdə idim və pələngləri gördüm)* cəlb edir və şagirdlər həmin cümləyə əsasən mətnin mövzusunu təxmin edirlər (*Mətndə kim və ya nə haqqında danışılacaq? – Sirkdəki pələnglər haqqında*). Sonra müəllifin pələnglər haqqında nə danışacağını müəyyənləşdirmək üçün ikinci cümləyə diqqət yetirmələrini tövsiyə edir. Şagirdlər diskussiya yolu ilə aşağıdakı nəticəyə gəlirlər: Birinci mətndə müəllif pələnglərin sirkdə çıxış zamanı **nə etdikləri** haqda; ikinci mətndə pələnglərin **necə olması** haqda məlumat verir və sanki sözlərlə pələngin rəsmini çəkir; üçüncü mətndə isə müəllif *nə üçün?* sualı verir və deməli pələnglərlə bağlı **nəyi isə izah edəcəyini** məqsəd qoyur. Bununla da müəllim şagirdlərə nəqli, təsviri və mühakimə xarakterli mətnlərin mahiyyətini izah etməyə çalışır və onların butipli mətnlər qurması üçün zəmin yaradır.

İbtidai sinif müəllimi şagirdləri inşa yazmağa hazırlamaq üçün mətnlərin təhlili ilə yanaşı aşağıdakı iş növlərindən də istifadə edə bilər: verilmiş cümlələrdən (açar sözlərdən) mətn tərtib etmək; müəyyən atalar sözünə uyğun hadisə düşünmək; verilmiş plana maddələr əlavə edərək hekayə qurmaq; nəzm parçasını nəsrə çevirmək; hekayəni (nağılı) dəyişmək (hadisənin baş verdiyi zamanı, məkanı, obrazları (məsələn, başqa hekayədən (nağıldan) obrazlar əlavə etmək və s.)); suallar əsasında hekayə qurmaq; məzmununda, dilində, strukturunda səhv olan mətndə düzəliş etmək; giriş (əsas, nəticə) hissəsi verilmiş hekayənin çatışmayan hissəsini qurmaq; mətni genişləndirmək; süni şəkildə nitq situasiyası yaratmaqla şagirdləri nəqletməyə həvəsləndirmək və s.

Yuxarıda qeyd olunan metod və yollar ibtidai sinif müəllimi tərəfindən oxu mətnləri ilə tanışlıq prosesində mütəmadi olaraq həyata keçirilməlidir. Bu yolda uğur qazanmaq üçün gərgin əmək və səbir tələb olunur. Müəllim unutmamalıdır ki, böyük nəticələrə aparan yol – gündəlik olaraq atılan kiçik addımlardan başlayır.

**Problemin aktuallığı.** İnkişaf etmiş nitq insanın kamil bir şəxsiyyət kimi formalaşmasının vacib göstəricisidir. Bu baxımdan təhsilin ilk pillələrindən başlayaraq, rabitəli nitqin inkişafında daha səmərəli yolların axtarışına ehtiyac duyulur.

**Problemin elmi yeniliyi.** Məqalədə inşa təliminə hazırlıq məqsədilə görüləcək işlərin məzmunu araşdırılmış, tətbiqi səmərəli ola biləcək metod və vasitələr təklif edilmişdir.

**Problemin nəzəri və praktik əhəmiyyəti.** Məqalə ibtidai sinif müəllimlərinə şagirdlərin rabitəli nitqini, mətn qurmaq bacarıqlarını inkişaf etdirmək məqsədilə görüləcək işlərin məzmununu, forma və metodlarını daha da təkmilləşdirmək baxımından praktik istiqamət verə bilər.

## Ədəbiyyat:

1. Cəfərova N., Qasımova M. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. – Bakı: ADPU, – 2023. – 528 s.
2. İsmayılov R., Nurullayeva Ü., Zahidova Ş., Bayramova İ., Xanalıyeva A. Ümumi təhsil müəssisələrinin 2-ci sinifləri üçün Azərbaycan dili fənni üzrə dərslik (1-ci hissə). – Bakı: “Təhsil NP” MMC, – 2021. – 104 s.
3. Kərimov, Y. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası / Y. Kərimov. – Bakı: Səda, – 2013. – 552 s.
4. Qurbanov, V. Oxu və nitq inkişafı təlimi / V. Qurbanov. – Bakı: Müəllim, – 2021. – 107 s.
5. Жесткова Е. А., Стрижева К. Н. Формирование речевых умений младших школьников при создании сочинения-описания // Молодой ученый, – 2014, № 21.1., – 297 с.

**E-mail:** maya0866@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.* **H.Q. Əliyev,**
*filol.ü.fəls.dok., dos.* **T.A. Mehrabova**
**Redaksiyaya daxil olub:** 22.01.2024.